**Bakı Dövlət Universitetinin**
**Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin**
**2022-ci il üçün fəaliyyəti haqqında**
**HESABATI**

**(yanvar – dekabr 2022)**

Bakı Dövlət Universitetinin (BDU) Humanitar məsələlər və gənclər siyasəti şöbəsi cari il ərzində universitetin müvafiq struktur bölmələri, fakültələr və tələbə təşkilatları ilə birgə əməkdaş və tələbələrin humanitar məsələlərinin həlli, tələbə gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi, ölkədə aparılan gənclər siyasətinin mahiyyətinin tələbələrə aşılanması, ümumbəşəri və milli-mənəvi dəyərlərin qorunub saxlanılması, zərərli vərdişlərə qarşı maarifləndirici işlərin aparılması, azərbaycançılıq və dövlətçilik ənənlərinin təbliği istiqamətində tərbiyə işinin səmərəliyinin və demokratik dəyərlərin universitetdə təşviqini həyata keçirmək məqsədi ilə bir sıra tədbirlər həyata keçirmişdir. Bu müddət ərzində ölkədə aparılan genişmiqyaslı sosial layihələrdə BDU əməkdaş və tələbələrinin fəal iştirakı, gənclər siyasəti ilə bağlı tədbirlərə və könüllülük hərəkatına tələbələrin fəal qoşulması təmin olunmuşdur. Sosial məsələlərlə bağlı keçirilən tədbirlərdə iştirak edərək BDU-nun sosial yönümlü tədbirləri ölkədə və digər ali təhsil müəssisələrində aparılan sosial yönümlü işlərlə əlaqələndirilmişdir. Cari ilin yanvar ayında şöbənin illik fəaliyyət planı hazırlanmış, il ərzində keçiriləcək tədbirlər və layihələr həmin fəaliyyət planında öz əksini tapmışdır. Ötən il ərzində şöbə universitetin 16 fakültəsi, tələbə təşkilatları və müxtəlif struktur bölmələri ilə bir çox istiqamətlərdə birgə fəaliyyət göstərmiş, müxtəlif mövzularda tədbirlər, konfrans və dəyirmi masalar, sərgilər və təlimlərin təşkilatçısı kimi ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinə öz töhfəsini vermişdir. Xüsusilə qeyd etmək lazımdır ki, 2022-ci ilin Azərbaycanda "Şuşa İli" elan edilməsi ilə əlaqədar BDU-da "Şuşa İli" çərçivəsində BDU rektorunun əmri ilə təsdiq olunmuş Tədbirlər Planı işlənib hazırlanmışdır. Ümumilikdə Universitetdə 2022-ci il ərzində Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin təşkilatçılığı ilə Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, BDU Könüllüləri Təşkilatı və fakültələrdə və eləcədə müxtəlif qurumların müraciəti əsasında sosial-humanitar istiqamətdə **750-dən çox tədbir keçirilmişdir. Bunlardan 347 tədbir, 14 dəyirmi masa, 108 təlim, 23 intellektual yarış, 43 ziyarət, 90 görüş, 15 təqdimat, 12 konfrans, 22 müsabiqə, 15 sərgi, 17 ekskursiya, 5 videoçarx, 4 fləşmob, 17 ədəbi-bədii gecə, 6 konsert** təşkil olunmuş və tədbirlər KİV-lərdə və eləcədə universitetin rəsmi saytında və sosial mediada geniş işıqlandırılmışdır.




347 tədbir

14 dəyirmi masa

108 təlim

43 ziyarət

90 görüş

15 təqdimat

12 konfrans

22 müsabiqə

15 sərgi

17 ədəbi-bədii gecə

17 ekskursiya

23 İntellektual yarış

6 aksiya

**“20 Yanvar faciəsinin otuz ikinci ildönümü” ilə əlaqədar keçirilən tədbirlər**

20 Yanvar faciəsinin otuz ikinci ildönümü ilə əlaqədar Təhsil Nazirliyinin 2022-ci il üçün təsdiq olunmuş “Tədbirlər Planına” müvafiq olaraq Bakı Dövlət Universitetində BDU rektorunun 14 yanvar 2022-ci il tarixli əmri ilə təsdiq edilmiş “Tədbirlər Planı” işlənib hazırlanmışdır. Tədbirlər Planına uyğun olaraq fakültələrdə, tələbə təşkilatlarında, BDU-nun nəzdində İqtisadiyyat və humanitar kollecdə, Qazax filialı və Gənc İstedadlar liseyində ümumilikdə **11 tədbir, 1 konfrans, 2 sərgi, 1 xüsusi dərs, 5 ziyarət** həyat keçirilmiş və Universitetin rəsmi saytında, KİV-lərdə və sosial mediada işıqlandırılmışdır.

Tədbirlər aşağıdakılardır:

- 16 yanvar 2022-ci il tarixində Kimya fakültəsində Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə "20 Yanvar-Qanlı Yanvar" adlı onlayn tədbir keçirilmişdir. Tədbirdə Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov, Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının müdiri Rasim Alosmanov, Neft kimyası və kimya texnologiyası kafedrasının müdiri İbrahim Məmmədov, Kimya fakültəsi Tələbə Gənclər Təşkilatının sədri Əli Qədirli, Kimya fakültəsi Tələbə Gənclər Təşkilatının sədr müavini Məhərrəmova Arzu çıxış etmişlər.
- 18 yanvar 2022-ci il tarixində Tarix fakültəsində "20 Yanvar - tarixçilərimizin gözü ilə" adlı konfrans keçirilib. Konfransda Tarix fakültəsinin dekanı İbrahim Zeynalov, Qafqaz xalqları tarixi kafedrasının professoru Qabil Əliyev, dosent Səidə Quliyeva, Tarix fakültəsinin TGT sədri Murad Hüseynli çıxış etmişlər.

- 18 yanvar 2022-ci il tarixində Jurnalistika fakültəsində 20 Yanvar faciəsinin otuz ikinci ildönümünə həsr olunmuş anım tədbiri keçirilmişdir. Tədbirdə fakültənin dekanı Vüqar Əliyev, dekan müavinləri Samir Mirzəyev və Esmira Rövşənova, BDU-nun professoru Cahangir Məmmədli, müəllimlər Diləfruz Şahbazova və Zibeydə Mirzəyeva, Jurnalistika fakültəsinin birinci kurs tələbələri Anar Hüseynov, Fidan Bəbirova, Sərvinaz Hacalıyeva mövzu ilə bağlı çıxış etmişlər.
- 19 yanvar 2022-ci il tarixində BDU-nun rəhbərliyi, professor-müəllim heyəti və tələbələrin iştirakı ilə BDU ərazisində yerləşən Şəhidlər abidəsi ziyarət olunmuşdur.

- 19 yanvar 2022-ci il tarixində Elmi Kitabxananın təşkilatçılığı ilə BDU-da 20 Yanvar faciəsinə həsr olunmuş sərgi təşkil olunmuşdur. Sərgidə 20 Yanvar gecəsində baş vermiş hadisələri qələmə almış müəlliflərin əsərləri, həmin müdhiş gecəni əks etdirən fotolar nümayiş etdirilmişdir.

- 19 yanvar 2022-ci il tarixində BDU-da 20 Yanvar faciəsinin otuz ikinci ildönümü ilə əlaqədar anım tədbiri keçirilmişdir. Tədbirdə BDU-nun rektoru Elçin Babayev, Millət vəkili, BDU-nun professoru Jalə Əliyeva, Tarix fakültəsinin dosenti Sənubər İsmayılova, Jurnalistika fakültəsinin doktorantı Nurşərəf Tağıyeva çıxış etmişlər. Tədbir BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə ədəbi-bədii hissə ilə davam etmişdir.
- 19 yanvar 2022-ci il tarixində BDU Könüllülərinin təşkilatçılığı ilə Ekologiya və torpaqşünaslıq fakültəsində "20 Yanvar" adlı tədbir keçirilmişdir. Tədbirdə Ekologiya və torpaqşünaslıq fakültəsinin dekan müavini Fətəli Hüseynov, tarix elmləri doktoru, professor Sevda Süleymanova, BDU könüllülərinin Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə sədri Leyla İmaməliyeva çıxış etmişlər.
- 19 yanvar 2022-ci il tarixində Bakı Dövlət Universiteti nəzdində İqtisadiyyat və Humanitar Kollecdə 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr edilmiş tədbir keçirilmişdir. Tədbirdə

Kollecin direktoru, professor Səhər Orucova çıxış etmiş, tədbirin qonaqları olan 4 saylı Uşaq İnkişaf Mərkəzinin "Nur" vokal qrupunun ifasında qəhrəmanlıq nəğmələri səsləndirmişlər.

- 19 yanvar 2022-ci il tarixində BDU-nun Qazax filialında 20 Yanvar faciəsinin otuz ikinci ildönümünə həsr edilmiş anım tədbiri keçirilmişdir. Tədbirdə 20 Yanvar faciəsi ilə bağlı kitablardan ibarət sərgi nümayiş etdirilmişdir.

- 19 yanvar 2022-ci il tarixində BDU-nun nəzdində "Gənc İstedadlar" liseyində ilk dərslər 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş, şagirdlərə qanlı faciənin təfərrüatları barədə məlumat verilmiş, daha sonra liseyin müəllim və şagird heyəti Şəhidlər Xiyabanını ziyarət etmişlər.

- 19 yanvar 2022-ci il tarixində Kitabxanaçılıq-informasiya fakültəsində 20 Yanvar faciəsinin otuz ikinci ildönümünə həsr edilmiş xüsusi dərs keçirilmişdir. Dərsdə BDU-nun kafedra müdiri, professor Knyaz Aslan 20 Yanvar faciəsinin canlı şahidi kimi tələbələrə məruzə ilə çıxış etmişdir.

- 19 yanvar 2022-ci il tarixində Hüquq fakültəsində "20 yanvar tariximizin qəhrəmanlıq səhifəsidir: tarixi və hüquqi yanaşma" adlı onlayn tədbir keçirilmişdir. Hüquq fakültəsinin dekan vəzifəsini icra edən Zahid Cəfərovun moderatorluğu ilə keçirilən tədbirdə Tarix fakültəsinin Azərbaycan tarixi kafedrasının dosenti Ələmdar Şahverdiyev "20 yanvar faciəsinin başvermə səbəbləri və nəticələri", Beynəlxalq ümumi hüquq kafedrasının dosenti Rahim Məmmədov "20 Yanvar Aktı Azərbaycan xalqına qarşı törədilən soyqırım cinayəti kimi", Hüquq fakültəsi TGT-nin sədri Firavan Əlizadə "20 Yanvar hadisələrinə görə beynəlxalq cinayət məsuliyyəti məsələlərinin müəyyənləşdirilməsi", fakültənin II-ci kurs tələbəsi Siyavuş Bağırov "Yanvar müdaxiləsinin qeyri-hüquqi tərəfləri" mövzusunda çıxış etmişlər. Sonda Hüquq fakültəsinin birinci kurs tələbəsi Cəfər Məmmədov özünün müəllifi olduğu 20 yanvara həsr olunmuş şeirini səsləndirmişdir.

- 19 yanvar 2022-ci il tarixində Şərqşünaslıq fakültəsinin rəhbərliyi, müəllim və tələbələri Şəhidlər Xiyabanını ziyarət etmişlər.

- 19 yanvar 2022-ci il tarixində Coğrafiya fakültəsinin rəhbərliyi, müəllim və tələbələri Şəhidlər Xiyabanını ziyarət etmişlər.

- 19 yanvar 2022-ci il tarixində BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin üzvləri Şəhidlər Xiyabanını ziyarət etmişlər.

- 20 yanvar 2022-ci il tarixində Fizika fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə "20 Yanvar" adlı tədbir keçirilmişdir. Tədbirdə Fizika fakültəsinin dekan müavini Məhəmməd Məhərrəmov, Tələbə Gənclər Təşkilatının üzvü Aysun İbrahimli və Tələbə Həmkarlar İttifaqı Komitəsinin üzvləri Rəna

Mehrəliyeva  və Aynur Mirzəzadə çıxış etmişlər. Tələbə Gənclər Təşkilatının üzvləri Şəfa Məmmədova  və Nigar Məmmədova  20 Yanvar haqqında şeirlər səsləndirmiş, Tələbə Gənclər Təşkilatının sədr müavini Fidan İsmayılovanın hazırladığı videoçarx nümayiş etdirilmişd.

- 20 yanvar 2022-ci il tarixində Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilatçılığı ilə BDU Tələbə Gənclər Təşkilatının idarə heyəti və fəalları Şəhidlər Xiyabanını ziyarət etmişlər.
- 20 yanvar 2022-ci il tarixində BDU-nun rəhbərliyi, professor-müəllim heyəti və tələbələr Şəhidlər Xiyabanını ziyarət etmişlər.
- 22 yanvar 2022-ci il tarixində Biologiya fakültəsində 20 Yanvar faciəsinin otuz ikinci ildönümünə həsr edilmiş tədbir keçirilmişdir.

**“Xocalı soyqırımının otuzuncu ildönümü” ilə əlaqədar keçirilən tədbirlər**

Azərbaycan Respublikası təhsil nazirinin 2022-ci il 14 fevral tarixli F-81 nömrəli əmri ilə təsdiq edilmiş “Xocalı soyqırımının otuzuncu ildönümünün keçirilməsi ilə bağlı Təhsil Nazirliyinin Tədbirlər Planı”na müvafiq olaraq Bakı Dövlət Universitetində (BDU) Xocalı soyqırımının otuzuncu ildönümünün keçirilməsi ilə əlaqədar BDU-nun Tədbirlər Planı hazırlanmış və BDU rektorunun 2022-ci il 15 mart tarixli R-1-27 nömrəli əmri ilə təsdiq edilmişdir.

Tədbirlər Planına müvafiq olaraq, Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımının tanıdılması istiqamətində  silsilə tədbirlər: o cümlədən, 20-dən çox tədbir, 1 beynəlxalq konfrans, 4 sərgi,  1 təqdimat, 3 film nümayişi, 1 videoçarx, 1 musiqili kompozisiya, 1 xüsusi dərs, 1 tamaşa, 1 elmi-bədii sessiya keçirilmişdir. Tədbirlər BDU-nun rəsmi saytında və ölkənin kütləvi informasiya vasitələrində işıqlandırılmışdır.

Aşağıdakı tədbirlər keçirilmişdir:

1. 18 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetində  Gənclər Fondu və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının birgə təşkilatçılığı ilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə aparılan “Xocalıya ədalət” beynəlxalq kampaniyası çərçivəsində təqdimat keçirilmişdir. Təqdimat mərasimində BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, “Xocalıya ədalət” beynəlxalq kampaniyasının əməkdaşı Cəbrayıl Fərzəliyev çıxış etmişlər.

2. 22 fevral 2022-ci il tarixində Beynəlxalq əlaqələr şöbəsi və Xarici tələbələrlə iş şöbəsinin birgə təşkilatçılığı ilə  Bakı Dövlət Universitetində təhsil alan xarici tələbələrin iştirakı ilə Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunmuş “Xocalı - əsrin faciəsi” adlı tədbir keçirilmişdir. Tədbirdə Beynəlxalq

əlaqələr şöbəsinin müdiri Rauf Həsənov “Xocalı soyqırımı – tarixi həqiqətlər” mövzusunda, Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Şəms Bağırova isə Xocalı soyqırımı zamanı qətlə yetirilmiş və itkin düşmüş uşaqlar haqqında “Onlar heç vaxt böyüməyəcəklər” adlı təqdimatla çıxış etmişlər.

3. 22 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetində Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş tələbələrin əl işlərindən ibarət “Xocalını unutmadıq” adlı rəsm sərgisi keçirilmişdir.

4. 22 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Elmi kitabxanasının təşkilatçılığı ilə “Xocalı soyqırımı - 30” adlı foto və kitab sərgisi təşkil olunub. Sərgidə Xocalı soyqırımından bəhs edən, Azərbaycan, ingilis və rus dillərində 50-dək kitab, həmçinin Xocalı faciəsinin dəhşətlərini əks etdirən 30-dək tarixi fotoşəkil nümayiş olunmuşdur.

5. 22 fevral 2022-ci il tarixində Tarix fakültəsində könüllülərinin təşkilatçılığı ilə "Xocalı-tarixdə ən dəhşətli soyqırım aktı" adlı tədbir keçirilmişdir. Tədbirdə Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov, Türk xalqları tarixi kafedrasının dissertantı Vasif Nəbiyev, fakültənin II kurs tələbəsi Əfsanə Vəliyeva çıxış etmişlər.

6.23 fevral 2022-ci il tarixində Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş “Xocalı simfoniyası” adlı musiqili anım tədbiri keçirilmişdir.

7. 23 fevral 2022-ci il tarixində Xocalı soyqırımının otuzuncu ildönümünə həsr olunmuş Azərbaycan Dövlət Televiziyasının hazırladığı “Tarixin izi ilə” sənədli filmi nümayiş olunmuşdur.

8. 23 fevral 2022-ci il tarixində BDU-nun Qazax filialında Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilmişdir.Tədbirdə BDU Qazax filialının direktoru Arif Rüstəmov, Filialın Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti Valeh Nəsibov, filialın müəllimi Əfranə Həsənli, IV kurs tələbəsi Pəri İbrahimova faciə ilə bağlı çıxış etmiş, filialın İV kurs tələbəsi Qənirə Musayeva isə Xocalı faciəsinə həsr olunmuş şeir səsləndirmişdir. Tədbirdə həmçinin “Xocalı soyqırımı” adlı foto və kitab sərgisi də nümayiş olunmuşdur.

9. 23 fevral 2022-ci il tarixində Geologiya, Fizika, Mexanika-riyaziyyat fakültələri və BDU nəzdində “Gənc İstedadlar” liseyinin birgə təşkilatçılığı ilə Xocalı soyqrımının 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Geologiya fakültəsinin dekanı Mamoy Mansurov, Tarix fakültəsinin Azərbaycan tarixi kafedrasının müdiri Azad Rzayev, Geologiya fakültəsinin dekan müavini Ruslan Şəmiyev və Fizika fakültəsinin dekan müavini Məhəmməd Məhərrəmov çıxış etmişlər. Tədbirdə həmçinin, BDU-nun “Gənc istedadlar” liseyinin şagirdləri Aysu Əliyeva, Nəzrin Cəlilova, İsmayıl Cəlilov, Ayan Hüseynov və Əli Qurbanlı Xocalı faciəsinə həsr olunmuş şeirlər səsləndirmişlər.

10. 23 fevral 2022-ci il tarixində Filologiya fakültəsində Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Xocalı soyqrımının 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.

11. 23 fevral 2022-ci il tarixində Ekologiya və torpaqşünaslıq fakültəsi könüllülərinin təşkilatçılığı ilə ilə Xocalı soyqrımının 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.

12. 24 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Tədrisin Təşkili və İdarə olunması Mərkəzinin Hazırlıq sektorunun tələbələrinin iştirakı ilə Xocalı soyqırımının 30 illiyinə həsr olunmuş "Xocalı faciəsi əcnəbi tələbələrin gözü ilə" adlı ədəbi-musiqili tədbir keçirilmişdir. Tədbirdə Tarix fakültəsinin dosenti Boran Əziz çıxış etmiş, xarici tələbələr isə "Xocalım, ay Xocalım" kompozisiyasını nümayiş etdirmişlər. Tədbirdə həmçinin, Çin və Türkiyədən olan əcnəbi tələbələr "Sarı gəlin", "Annem" mahnılarını, ""Gedək gəzək Xocalını", "Şəhidlərə", "Xocalı", "Xocalı yası", "Qanlar yerdə qalmadı" şeirlərini səsləndirmişlər.

13. 24 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetinin nəzdində "Gənc İstedadlar" liseyində "Xocalı soyqırımı" adlı tədbir keçirilmişdir. Tədbirdə lisey şagirdlərinin Xocalı soyqırımı ilə bağlı rəsm sərgisi təşkil olunmuşdur.

14. 24 fevral 2022-ci il tarixində Tarix fakültəsi və Bakı Musiqi Akademiyasının birgə təşkilatçılığı ilə Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunmuş elmi-bədii sessiya keçirilmişdir. Elmi-bədii sessiyada Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov, BMA-nın elmi-tədqiqat laboratoriyasının müdiri, dosent Nuridə İsmayılzadə, Bəstəkarlar İttifaqının İdarə Heyətinin üzvü Rüfət Ramazanov, sənətşünaslıq üzrə fəlsəfə doktorları Mehparə Rzayeva, Rauf Bəhmənli, Mübariz Əliyev məruzələrlə çıxış etmişlər.

15. 24 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilmişdir.

16. 24 fevral 2022-ci il tarixində Tətbiqi riyaziyyat və kibernetika fakültəsində Tələbə Gənclər Təşkilatı və Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının otuzuncu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.

17. 24 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Hüquq fakültəsi və Yeni Azərbaycan Partiyası Zahid Xəlilov 23. birgə təşkilatçılığı ilə "Xocalı soyqırımı – XX əsrin faciəsi, Qan Yaddaşımız!" adlı tədbir keçirilmişdir. Tədbirdə BDU-nun Hüquq fakültəsinin dekanı vəzifələrini icra edən Zahid Cəfərov, Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov "Xocalı soyqırımı sülh və bəşəriyyət əleyhinə olan cinayətlərdən biridir" mövzusunda, əməkdar elm xadimi, professor Şahlar Əsgərov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Hüquq fakültəsinin Konstitusiya kafedrasının müdiri Ziyafət Əsgərov "Xocalı soyqırımına beynəlxalq siyasi hüquqi qiymətin verilməsi", Hüquq fakültəsinin Beynəlxalq ümumi hüquq kafedrasının professoru Əfsər Sadıqov "Ümumi siyasətin davamı kimi Xocalı Soyqırımı cinayəti: geriyə şamil edilən beynəlxalq hüquq", Tələbə Gənclər Təşkilatının Hüquq fakültəsi üzrə sədri Firavan Əlizadə "Xocalı Soyqırımı XX əsrin faciəsi", Hüquq fakültəsinin ikinci kurs tələbəsi Cavid Mirzəzadə "Xocalı soyqırımı bütün bəşəriyyətə qarşı törədilmiş cinayət" adlı məruzələrlə çıxış etmişlər.

18. 24 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetində Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransda BDU-nun rektoru Elçin Babayev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Milli Məclisin deputatı, BDU-nun professoru Jalə Əliyeva, Türkiyənin Azərbaycandakı səfirliyinin müşaviri Hüseyin Altınalan çıxış ediblər. Konfransda BDU-nun Tarix fakültəsinin professoru Fazil Baxşəliyev "Xocalı faciəsi erməni millətçilərinin azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin növbəti mərhələsidir", Türkiyə Cümhuriyyətinin Azərbaycandakı keçmiş hərbi attaşesi, ehtiyatda olan general Yücel Karauz "Xocalı soyqırımının hərbi strateji baxımdan dəyərləndirilməsi", "The Jerusalem Post" qəzetinin siyasi şərhçisi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsrail nümayəndəliyinin rəhbəri Arye Qut "Xocalı faciəsi insanlığa qarşı törədilmiş bəşəri cinayətdir", Türkiyənin Bozok Universitetinin professoru Kürşad Zorlu "Xocalıda yaşananlar qırğın-soyqırım dilemması baxımından: soyqırım olduğunu göstərən əsaslar", Daşkənd Dövlət Şərqşünaslıq İnstitutunun kafedra müdiri, professor Şarustam Şamusarov "İnsanlığa və bəşəriyyətə qarşı törədilmiş Xocalı soyqırımı təkrarlanmamalıdır", BDU-nun Beynəlxalq ümumi hüquq kafedrasının dosenti Rahim Məmmədov "Xocalı soyqırımına görə təqsirli şəxslərin cinayət məsuliyyəti: maddi və prosessual aspektləri" mövzularında məruzə ilə çıxış etmişlər.

19. 24 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin Tədris Tele-radio studiyası tərəfindən "Xocalı – Qan yaddaşımız" mövzusunda videoçarx hazırlanmışdır.

20. 25 fevral 2022-ci il tarixində Biologiya fakültəsində Tələbə Gənclər Təşkilatı tərəfindən "Xocalı faciəsi qan yaddaşımızdır" adlı tədbir keçirilmişdir. Tədbirdə fakültənin dekanı, professor Afət Məmmədova, Tarix fakültəsinin professoru Nuru Məmmədov, fakültənin əslən Xocalıdan olan tələbəsi Bənövşə Əkbərova, dosent Sevda Tahirli çıxış etmişlər.

21. 25 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecdə Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Kollecin Yaradıcılıq mərkəzinin hazırladığı "Xocalı harayı" tamaşası göstərilib, şeirlər, musiqilər səsləndirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində çəkilən "Xocalı nişanəsi" bədii-sənədli qısametrajlı mi nümayiş olunub. Tədbir çərçivəsində həmçinin 4 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin və Kollecin tələbələrinin rəsm əsərləri sərgilənmişdir.

22. 25 fevral 2022-ci il tarixində Coğrafiya fakültəsində Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə fakültəsinin dekanı, dosent Şəkər Məmmədova, Tarix fakültəsinin professoru Sevda Süleymanova, BDU THİK sədri Hacıbaba Mustafayev çıxış etmiş, tələbələr Nazilə Əsgərova, Leyla Şıxıyeva, Ayla Həsənzadə və İlkanə Qasımova Xocalı faciəsi, soyqırıma beynəlxalq müstəvidə hüquqi-siyasi qiymətin verilməsi barədə müxtəlif dillərdə məruzələrlə çıxış etmişlər.

23. 25 fevral 2022-ci il tarixində Tarix fakültəsində Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə "Xocalı - XX əsrin faciəsi" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə Tarix fakültəsinin tədris işləri üzrə dekan müavini Elşən Aslanov, tarix üzrə fəlsəfə doktoru Boran Əziz çıxış etmiş, fakültənin II kurs tələbəsi Səkinə Babayeva Xocalı faciəsinin şahidi Yaqub Zamanovun ailəsinin başına gələn hadisələri auditoriyanın diqqətinə çatdırmışdır.

24. 25 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində Xocalı soyqırımının otuzuncu ildönümünə həsr olunmuş xüsusi dərs keçirilmişdir. Xüsusi dərsdə BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan mühazirə ilə çıxış etmişdir.

25. 25 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatı və “Xocalı Soyqırımını Tanıtma” İctimai Birliyinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilmişdir. Tədbirdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, “Xocalı Soyqırımını Tanıtma” İctimai Birliyinin sədri, müharibə veteranı, Xocalı soyqırımının şahidi Şamil Sabiroğlu, Sambo və cüdo üzrə Rusiya və Avropa çempionu Azad Məmmədov, Xocalı rayonunun Daşbulaq kənd sakini, Vətən müharibəsi iştirakçısı İlqar Məmmədov çıxış etmişlər. Tədbirdə Ağcabədi Regional Mədəniyyət İdarəsinin Əli Quliyev adına Laçın şəhər 1 saylı Uşaq Musiqi Məktəbinin kollektivinin hazırladığı bədii kompoziya təqdim olunmuşdur.

26. 25 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsi tərəfindən hazırlanan “Xocalı – insanlığa qarşı cinayət” (“Khojaly - crime against humanity") sənədli filminin təqdimatı keçirilmişdir.

27. 25 fevral 2022-ci il tarixində Sosial elmlər və psixologiya fakültəsi üzrə könüllülərin təşkilatçılığı ilə “Xocalı soyqırımının törətdiyi sosial-psixoloji zərərlər“ adlı tədbir keçirilmişdir. Tədbirdə fakültənin dekanı Rövşən Cavadov, I kurs tələbələri Elkin Kərimov və Mehriban Səlimzadə, BDU könüllülərinin Sosial elmlər və psixologiya fakültəsi üzrə sədri Murad Səfərli çıxış etmişlər.

28. 25 fevral 2022-ci il tarixində Şərqşünaslıq fakültəsində Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri keçirilmişdir. Tədbirdə fakültənin dekanı Aydan Xəndan, dekan müavini Şahin Yusifli, Türk filologiyası kafedrasının müdiri Rüfət Rüstəmov, Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müdiri Oqtay Cəlilbəyli, fakültənin Vətən müharibəsində iştirak edən tələbələri və ölkənin ən gənc Vətən müharibəsi qəhrəmanı Vüsal Yaqubov çıxış etmişlər.

29. 25 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunda Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilmişdir. Tədbirdə İnstitutun direktoru Sədiyar Rəhimov, aparıcı elmi işçi Qəzənfər Bayramov, elmi işçi Nərmin Hüseynova, şöbə müdiri Fərhad Rüstəmov çıxış etmişlər.

30. 25 fevral 2022-ci il tarixində Filologiya fakültəsi könüllülərinin təşkilatçılığı ilə “Xocalı” adlı tədbir keçirilmişdir.

31. 25 fevral 2022-ci il tarixində Filologiya fakültəsinin “Qiraət klubunun” təşkilatçılığı ilə Xocalı soyqırımının otuzuncu ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə fakültənin dekan müavini Anar Fərəcov çıxış etmiş, Filologiya fakültəsinin tələbələri - Səyahət Məhərrəmova və Gülnarə Quliyeva Xocalı faciəsi ilə bağlı şeirlər, Lumu İspəndiyarzadə,Ayşən Heybətli isə vətənpərvərlik mövzusunda mahnılar ifa etmişlər.

32. 25 fevral 2022-ci il tarixində Kimya fakültəsində Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti və Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə "O qarlı və qanlı gecə" adlı tədbir keçirilmişdir. Tədbirdə Kimya fakültəsinin dekanı Fuad Kərimli, Neft kimyası və kimya texnologiyaları kafedrasının müdiri İbrahim Məmmədov, Kimya fakültəsi Tələbə Gənclər Təşkilatının sədri Əli Qədirli, Tələbə Elmi Cəmiyyətinin sədri İsayev İsa, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Cəfərova Mədinə, fakültənin ikinci kurs tələbəsi Hüseynov İlqar, birinci kurs tələbələri İbrahimova Fərqanə, İsmayılova Şəlalə, Kərimova Leyla, Mustafayev Eltac çıxış etmişlər.

33. 25 fevral 2022-ci il tarixində Jurnalistika fakültəsində Tələbə Gənclər Təşkilatı tərəfindən Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə fakültənin dekan müavini Samir Mirzəyev, Tarix fakültəsinin Asiya və Afrika ölkələri tarixi kafedrasının dosenti Atamoğlan Məmmədli, BDU Tələbə Gənclər Təşkilatının sədr müavini Ələkbər Həsənov və Jurnalistika fakültəsi TGT-nin sədri Fariz Sarıyev çıxış etmişlər.

34. 25 fevral 2022-ci il tarixində Mədəniyyət-yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə Xocalı soyqırımının otuzuncu ildönümünə həsr olunmuş tələbələrin hazırladığı “Arzu murad” tamaşası nümayiş olunmuşdur.

35. 26 fevral 2022-ci il tarixində Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələr Xocalı abidəsinə təşkil olunan yürüşdə iştirak etmişlər.

## “Şuşa İli” çərçivəsində həyata keçirilən tədbirlər

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 05 yanvar 2022-ci il tarixli Sərəncamı ilə 2022-ci il Azərbaycan Respublikasında “Şuşa İli” elan edilmişdir. Sərəncamın icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Təhsil naziri Emin Əmrullayev tərəfindən “Şuşa ili” ilə əlaqədar Təhsil Nazirliyinin Tədbirlər Planı təsdiq olunmuşdur. Təhsil Nazirliyinin Tədbirlər Planına müvafiq olaraq Bakı Dövlət Universitetində “Şuşa ili” ilə əlaqədar rektorun əmri ilə təsdiq edilmiş Tədbirlər Planı işlənib hazırlanmışdır. Tədbirlər Planında hər bir azərbaycanlının mənəvi məbədi olan Şuşa ilə bağlı elmi-tədqiqat işlərinin aparılması, Şuşanın tarixi, ədəbi mühiti, mədəniyyət abidələri və s. həsr olunmuş monoqrafiyaların nəşri, beynəlxalq elmi konfrans, seminar, dəyirmi masa,

açıq dərslərin, Şuşanın dahiləri haqqında ustad dərslərinin, foto, rəsm müsabiqələri, ədəbiyyat festivalları, intellektual bilik yarışlarının keçirilməsi, BDU əməkdaş və tələbələrinin Şuşaya səfərlərinin təşkili və s. nəzərdə tutulmuşdur. Cari il ərzində Tədbirlər planına uyğun olaraq "Şuşa İli" ilə əlaqədar fakültələrin, tələbə təşkilatlarının və eləcə də struktur bölmələrinin təşkilatçılığı ilə **3 elmi konfrans, 4 görüş, 22 tədbir, 5 müsabiqə, 3 sərgi, 4 elmi seminar, 1 fim nümayişi, 3 dəyirmi masa, 6 intellektual yarış** keçirilmiş və tədbirlər KİV-lərdə işıqlandırılmışdır.

Tədbirlər aşağıdakılardır:

- 17 yanvar 2022-ci il tarixində BDU Elmi Kitabxanasında ŞUŞA-270 adlı foto sərgi nümayiş olunmuşdur.
- 14 mart 2022-ci il tarixində Bakı Dövlət Universitetinin (BDU) Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə "Şuşa ili"nə həsr olunmuş "Şuşa qəhrəmanları ilə görüş" adlı tədbir keçirilmişdir.
- 08 aprel 2022-ci il tarixində Bakı Dövlət Universitetinin (BDU) Kimya fakültəsində "Şuşa ili"nə həsr olunmuş "Xarıbülbül" adlı rəsm sərgisi keçirilmişdir.
- 14 aprel 2022-ci il tarixində Bakı Dövlət Universitetində "Şuşa İli" çərçivəsində SABAH mərkəzinin təşkilatçılığı və Mirzə Ələkbər Sabir Fondunun dəstəyi ilə Vətən müharibəsi və Aprel döyüşlərinin qaziləri ilə görüş keçirilmişdir.
- 12 aprel 2022-ci il tarixində "Şuşa İli" çərçivəsində Bakı Dövlət Universitetinin (BDU) Debat klubunun yaranmasının 10 illiyi münasibətilə Vətən müharibəsi şəhidi, BDU-nun Tarix fakültəsinin məzunu, keçmiş debatçı Elşən Salayevin əziz xatirəsinə həsr olunmuş "Xarıbülbül" debat turniri keçirilmişdir.
- 25 aprel 2022-ci il tarixində Bakı Dövlət Universitetinin (BDU) Kimya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə "Şuşa, sən azadsan!" adlı tədbir keçirilmişdir.
- 29 aprel 2022-ci il tarixində Bakı Dövlət Universitetində (BDU) Kitabxanaçılıq-informasiya fakültəsinin təşkilatçılığı ilə "Şuşa ili" ilə əlaqədar tədbirlər silsiləsi çərçivəsində tanınmış yazıçı, Əməkdar mədəniyyət işçisi Mustafa Çəmənli ilə görüş keçirilmişdir.
- 13 may 2022-ci il tarixində Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti (MHX) Bakı Dövlət Universitetində (BDU) "Şuşa ili" çərçivəsində "Şuşanın istixana qazlarından azad yaşıl iqtisadi inkişaf perspektivləri" mövzusunda tədbir keçirilmişdir.

- 16-20 may 2022-ci il tarixlərində Bakı Dövlət Universitetinin (BDU) Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) təşkilatçılığı ilə “Şuşa həftəsi” layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində Şuşaya həsr edilən rəsm və qiraət müsabiqələri təşkil olunmuşdur.

- 18 may 2022-ci il tarixində Bakı Dövlət Universitetinin (BDU) Coğrafiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə "Şuşa Qarabağın tacıdır" adlı tədbir keçirilmişdir.

- 18 may 2022-ci il tarixində Şuşa Dövlət Musiqili Dram Teatrı Bakı Dövlət Universitetinin (BDU) Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə "Şuşa həftəsi" layihəsi çərçivəsində M.F.Axundovun “Sərgüzəşti-vəziri-xani-Lənkəran" tamaşasını nümayiş etdirilmişdir.

- 18 may 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Filologiya fakültəsində Tələbə Gənclər Təşkilatı və BDU Könüllülərinin birgə təşəbbüsü ilə “Şuşa İli”nə həsr olunmuş “Əziz Şuşa, sən azadsan” adlı tədbir keçirilmişdir.

- 20 may 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində “Şuşa Bəyannaməsinin informasiya təminatı” mövzusunda elmi seminar keçirilmişdir.

- 20 may 2022-ci il tarixində Bakı Dövlət Universitetində Magistrantların və gənc tədqiqatçıların "Şuşa İli" nə həsr olunmuş "Fizika və Astronomiya problemləri" adlı XXII Ümumrespublika elmi konfransı keçirilmişdir.

- 24 may 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Tədrisin təşkili və idarə olunması Mərkəzinin hazırlıq sektorunun əcnəbi tələbələrinin təqdimatında “Azad diyar – Şuşam mənim” adlı ədəbi-bədii tədbir keçirilmişdir.

- 25 may 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Filologiya fakültəsi Könüllülərinin təşəbbüsü ilə “Xarıbülbül ətirli zəfərimiz” adlı esse müsabiqəsi keçirilmişdir.

- 26 may 2022-ci il tarixində Bakı Dövlət Universitetinin (BDU) Filologiya fakültəsinin Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasında “Şuşa folklor örnəkləri” mövzusunda elmi seminar keçirilmişdir.

- 09 iyun 2022-ci il tarixində BDU Həmkarlar İttifaqı Komitəsinin (HİK) təşkilatçılığı ilə Universitet rəhbərliyi, professor-müəllim və inzibati heyətinin bir qrupu Şuşa şəhərinə səfər etmişlər.

- 07 iyul 2022-ci il tarixində BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Universitetin inzibati heyəti və bir qrup tələbələri Şuşa şəhərinə səfər etmişlər.

- 15 iyul 2022-ci il tarixində Tələbə Gənclər Təşkilatı və Nərimanov rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə “Şuşa ili” çərçivəsində ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında stolüstü tennis üzrə açıq turnir keçirilmişdir.
- 29 sentyabr 2022-ci il tarixində Bakı Dövlət Universitetinin könüllülərinin təşəbbüsü ilə "Qarabağ mühazirələri" adlı yeni layihəyə başlanılmışdır.
- 31 oktyabr 2022-ci il tarixində Jurnalistika fakültəsində “Şuşa Bəyannaməsi - Azərbaycan-Türkiyə qardaşlığının yeni mərhələsi” mövzusunda elmi seminar keçirilmişdir.

- 02 oktyabr 2022-ci il tarixində Elm və Təhsil Nazirliyinin SABAH qrupları layihəsi çərçivəsində “Şuşa ili“nə həsr olunan təhsil, İT və mühəndislik üzrə bilik yarışının final mərhələsi Bakı Dövlət Universitetində keçirilmişdir.

- 05 oktyabr 2022-ci il tarixində Tarix fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "Şuşanın tarixi abidələri və mədəni irsi" mövzusunda tədbir keçirilmişdir.

- 12 oktyabr 2022-ci il tarixində Sosial elmlər və psixologiya fakültəsində “Şuşa şuşalı tələbələrin gözü ilə” adlı tədbir keçirilmişdir.

- 14 oktyabr 2022-ci il tarixində Kimya fakültəsində “Şuşa ili”nə həsr olunmuş “Zəfərə doğru addım-addım” adlı tədbir keçirilmişdir.

- 21 oktyabr 2022-ci il tarixində Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə “Şuşa ili”nə həsr olunmuş “Dirçələn Qarabağ” adlı tədbir keçirilmişdir.

- 21 oktyabr 2022-ci il tarixində Kitabxanaçılıq-informasiya fakültəsində gənc rəssam Aytac Aslanın əsərlərindən ibarət rəsm sərgisi təşkil edilmişdir.

- 01 noyabr 2022-ci il tarixində Kimya fakültəsinin Tələbə Elmi Cəmiyyətin təşəbbüsü ilə "Şuşa ili"nə həsr olunmuş "Qarabağın təbii sərvətləri və mədəni irsi" adlı tədbir keçirilmişdir.
- 14 noyabr 2022-ci il tarixində Bakı Dövlət Universitetinin tələbələri ilə “Qarabağın dirçəlişində həmrəyliyin rolu” mövzusunda görüş keçirilmişdir.
- 22 noyabr 2022-ci il tarixində Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "Şuşa ili"nə həsr olunmuş fakültələrarası "Dəmir yumruq" adlı "Nə? Harada? Nə zaman?" intellektual bilik yarışı keçirilmişdir.

- 25 noyabr 2022-ci il tarixində Bakı Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "Şuşa ili" nə həsr olumuş "Xarıbülbül" şeir musabiqəsi keçirilmişdir
- 28 noyabr 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Qazax filialının və Qazax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Şuşa – dünən, bu gün, sabah" mövzusunda Respublika elmi konfransı keçirilmişdir.
- 28 noyabr 2022-ci il tarixində Tələbə Həmkarlar İttifaqı Komitəsi və Jurnalistika fakültəsinin Tədris-tele-radio studiyasının birgə təşkilatçılığı ilə "Şuşa İli" çərçivəsində Şuşada anadan olmuş Universitetin professor-müəllim heyəti ilə müsahibələr layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində Şuşada anadan olmuş on nəfərə yaxın müəllim iştirak etmişlər.
- 17 dekabr 2022-ci il tarixində Geologiya fakültəsinin və Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə "Şuşa İli" çərçivəsində "Nə? Harada? Nə Zaman?" intellektual bilik yarışı keçirilmişdir.
- 28 dekabr 2022-ci il tarixində BDU-nun əməkdaş və tələbələrinə "Şuşanın 270 anı" bədii sənədli filmi nümayiş olunmuşdur.

**İrəvan müəllimlər seminariyasının 140 illiyinin qeyd edilməsi ilə bağlı Bakı Dövlət Universitetində həyata keçirilən tədbirlər haqqında**

**HESABAT**

Azərbaycan Respublikası təhsil nazirinin 2022-ci il 01 fevral tarixli əmri ilə təsdiq edilmiş İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi ilə əlaqədar Təhsil Nazirliyinin Tədbirlər Planı"na müvafiq olaraq Bakı Dövlət Universitetində "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi məqsədilə BDU rektorunun əmri ilə təsdiq edilmiş Tədbirlər Planı işlənib hazırlanmışdır. Tədbirlər Planına uyğun olaraq İrəvan Müəllimlər Seminariyasının 140 illiyi ilə əlaqədar Bakı Dövlət Universitetində **4 elmi seminar, 1 elmi konfrans, 1 respublika elmi konfransı, 1 sərgi keçirilmiş** və tədbirlər KİV-lərdə işıqlandırılmışdır.

Tədbirlər aşağıdakılardır:

- 23 fevral 2022-ci il tarixində "İrəvan müəllimlər seminariyası: İrəvan-Naxçıvan-Təbriz ictimai maarifçilik mühitinin formalaşmasının prioritetləri" mövzusunda elmi seminar keçirilmişdir. (məruzəçi prof. Həsən Bayramov)

- 22 aprel 2022-ci il tarixində "İrəvan maarifçilik mühiti" mövzusunda elmi seminar keçirilmişdir. (məruzəçi prof. Rüfət Hüseynzadə)
- 05 may 2022-ci il tarixində "İrəvan Müəllimlər Seminariyası" mövzusunda elmi konfrans keçirilmişdir
- 28 aprel 2022-ci il tarixində "İrəvan Müəllimlər Seminariyası: tarixilik və müasirlik kontekstində" elmi seminar keçirilmişdir. (məruzəçi prof. Həsən Bayramov)
- 11 may 2022-ci il tarixində "Azərbaycan müəllim kadrları hazırlığında İrəvan Müəllimlər Seminariyasının rolu" mövzusunda elmi seminar (məruzəçi prof. Fərrux Rüstəmov)
- 29 noyabr 2022-ci il tarixində İrəvan Müəllimlər Seminariyasının 140 illiyinə həsr olunmuş "İrəvan Müəllimlər Seminariyası: Tarixilik və müasirlik" mövzusunda Respublika elmi konfransı keçirilmişdir.
- 29 noyabr 2022-ci il tarixində İrəvan Müəllimlər Seminariyasının 140 illiyinə həsr olunmuş kitab sərgisi nümayiş olunmuşdur.
- 2022-ci il ərzində İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti, məzunları və ona rəhbərlik edən maarifçi ziyalılarla bağlı mövzuların magisrtlik və fəlsəfə doktorluğu dissertasiyalarında əks etdirilmişdir.
- 2022-ci il ərzində İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti, məzunları və ona rəhbərlik edən maarifçi ziyalılarla bağlı aparılan tədqiqatların nəticələri elmi jurnallarda dərc edilmişdir.

**Hüseyn Cavidin anadan olmasının 140 illiyi ilə əlaqədar**
**Bakı Dövlət Universitetində 2022-ci il ərzində həyata keçirilən tədbirlər barədə**
**HESABAT**

2022-ci ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rasizadənin) anadan olmasının 140 ili tamam olur. Azərbaycan Respublikasının Elm və təhsil nazirliyinin Tədbirlər Planına uyğun olaraq Bakı Dövlət Universitetində Hüseyn Cavidin anadan olmasının 140 illiyi ilə əlaqədar 1 ziyarət, 1 elmi seminar, 2 ədəbi-bədii gecə keçirilmiş və tədbirlər KİV-lərdə işıqlandırılmışdır. Tədbirlər aşağıdakılardır:

1. 17 oktyabr 2022-ci il tarixində BDU-nun Filologiya fakültəsinin tələbələri Hüseyn Cavidin Ev Muzeyini ziyarət etmişlər.
2. 24 oktyabr 2022-ci il tarixində BDU-da Hüseyn Cavidin 140 illiyinə həsr olunmuş "Zamanın sınağında" adlı elmi seminar keçirilmişdir.
3. 27 oktyabr 2022 Bakı Dövlət Universitetinin (BDU) Mədəniyyət-yaradıcılıq mərkəzi Azərbaycanın görkəmli dramaturqu Hüseyn Cavidin "Ana" mənzum faciəsini tamaşaya qoyulmuşdur.

4. 07 noyabr 2022-ci il tarixində BDU-nun Şərqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Hüseyn Cavidin 140 illik yubileyinə həsr olunmuş "Mənim Tanrım Gözəllikdir, Sevgidir" adlı Bədii Yaradıcılıq Günü keçirilmişdir.

**Xurşidbanu Natəvanın anadan olmasının 190 illiyi ilə əlaqədar Bakı Dövlət Universitetində 2022-ci il ərzində həyata keçirilmiş tədbirlər barədə**

**HESABAT**

2022-ci ildə Azərbaycan bədii fikrinin görkəmli siması Xurşidbanu Natəvanın anadan olmasının 190 ili tamam olur. Azərbaycan Respublikası Elm və təhsil nazirliyinin Tədbirlər Planına uyğun olaraq Bakı Dövlət Universitetində 2 elmi seminar keçirilmişdir.

Tədbirlər aşağıdakılardır:

1. 18 mart 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Filologiya fakültəsində “XIX əsr Qarabağ ədəbi mühiti: Xurşidbanu Natəvan” adlı elmi seminar keçirilmişdir.

2. 29 mart 2022-ci il tarixində Bakı Dövlət Universitetinin  Kitabxanaçılıq-informasiya fakültəsində 27 mart – Azərbaycanda “Elm günü” ilə bağlı silsilə tədbirlər çərçivəsində “Xurşidbanu Natəvanın əsərlərinin nəşr tarixi" mövzusunda elmi seminar keçirilmişdir.

**Əhməd Cavadın anadan olmasının 130 illiyi ilə əlaqədar Bakı Dövlət Universitetində həyata keçirilən tədbirlər barədə**

**HESABAT**

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavadın (Cavad Məhəmmədəli oğlu Axundzadənin) anadan olmasının 130 illiyi tamam olur. Azərbaycan Respublikası Elm və təhsil nazirliyinin Tədbirlər Planına uyğun olaraq Bakı Dövlət Universitetində Əhməd Cavadın 130 illiyi ilə əlaqədar 3 ədəbi-bədii tədbir, 1 elmi konfrans keçirilmiş, tədbirlər KİV-lərdə işıqlandırılmışdır.

Tədbirlər aşağıdakılardır:

1. 23 may 2022 Bakı Dövlət Universitetinin Filologiya fakültəsində Türkoloji dərnəyin təşkilatçılığı ilə 28 May – Müstəqillik Gününə və Əhməd Cavadın 130 illiyinə həsr olunmuş ədəbi-bədii tədbir keçirilmişdir.
2. 06 iyun 2022-ci il tarixində BDU nəzdində İqtisadiyyat və Humanitar Kollecdə Əhməd Cavadın anadan olmasının 130 illiyi münasibətilə "Əhməd Cavad dünyası"adlı ədəbi-bədii gecə keçirilmişdir.
3. 16 dekabr 2022-ci il tarixində BDU nəzdində Gənc İstedadlar liseyində Əhməd Cavadın 130 illiyinə həsr olunmuş ədəbi-bədii tədbir keçirilmişdir.
4. 17 dekabr 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Filologiya fakültəsində Əhməd Cavadın 130 illiyinə həsr olunmuş “Azərbaycan filoloji fikri çağdaş tədqiqatlarda” mövzusunda respublika elmi konfransı keçirilmişdir.

## Tələbə Təşkilatlarının fəaliyyəti

Cari il ərzində Tələbə Gənclər Təşkilatı (TGT) və Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və BDU Könüllüləri Təşkilatı Universitetin Tədbirlər Planına uyğun olaraq bir sıra layihələr və tədbirlər həyata keçirmişlər. Belə ki, tələbə gənclərə vətənpərvərlik ruhunun aşılanması, milli mənəvi dəyərlərin qorunub saxlanılması və geniş təbliği, zərərli vərdişlərə və neqativ hallara qarşı müabrizə, məişət zorakılığı, onların özünüinkişafının üzə çıxarılması və elmə və təhsilə marağının artırılması istiqamətində **Tələbə Gənclər Təşkilatı tərəfindən il ərzində 203-dən çox tədbir və təlimlər, Tələbə Həmkarlar İttifaqı Komitəsi tərəfindən isə 130 dən çox tədbir, BDU Könüllüləri Təşkilatı tərəfindən isə 102 tədbir, təlim, dəyirmi masa və ziyarət keçirilmişdir.** Tələbə təşkilatları əsasən Vətən müharibəsi şəhidləri və qazilərə diqqət və qayğı göstərilməsi və onların tələbələr arasında tanıdılması, milli mənəvi dəyərlərin qorunması, narkomaniya və digər zərərli vərdişlərin mənfi təsirləri, ekoloji çirklənmə, gənclərin layihələrinin dəstəklənməsi, onların asudə vaxtlarının səmərəli təşkili, ailə və məişət zorakılığı, vətənpərvərlik ruhunda yetişmələri və s. mövzularda maarifləndirici tədbirlər həyata keçirmişlər. Tələbə Təşkilatlarının nəzdində fəaliyyət göstərən klubların fəaliyyətini də xüsusilə qeyd etmək lazımdır. Belə ki. **THİK-nin nəzdində fəaliyyət göstərən “Genius club”, “Gənc İntellektuallar Məktəbi”, TGT-nin nəzdində fəaliyyət göstərən “Book club”, “”Eco club”, “Art club” və s** klublar yuxarıda qeyd olunan istiqamətlərdə uğurla fəaliyyət göstərmişlər. Eləcə də BDU-nun Tələbə Təşkilatları cari il ərzində Universitetdən kənarda keçirilən 30-dən çox müxtəlif intellektual yarış, tədbir, təlim. marafon və layihələrdə uğurla iştirak etmişlər.

**Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri R.O.Səmədov**